AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

29 aprel 2016-cı il № 21-24 (9027) Qiymәti 50 qәpik

## BU SAYIMIZDA

### TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT KONSORSİUMU YARADILIB

**Bakıda Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun yaradılması haqqında müqavilə imzalanıb, Azərbaycan Konsorsiumun Müşahidə Şurasının sədri seçilib.**

**Bakıda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun operator şirkətlərinin yığıncağı keçirilib və Azərbaycandan "ADY Express" MMC və "ACSC Logistics" MMC, Qazaxıstandan "KTZ Express" AC, Gürcüstandan "Trans Qafqasus Terminals" MMC Konsorsiuma üzv kimi daxil olub.**

Səh. 2

### ABŞ RƏSMİSİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANINDA "NAXÇIVAN" GƏMİ-BƏRƏSİ İLƏ DƏ TANIŞ OLUB

**Aprelin 15-də ABŞ dövlət katibinin iqtisadi və biznes məsələləri üzrə köməkçisinin məsul müavini Kurt Tonq Azərbaycana səfəri çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə tanış olub.**

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru qonağa bildirib ki, hazırda Azərbaycanın iqtisadi siyasətinin əsas prioriteti qeyri-neft sektorunun inkişafıdır.**

Səh. 3

### "DƏYİRMİ MASA" KEÇİRİLİB

***Rumıniyanın Konstansa şəhərində Avropa-Asiya-Avropa istiqamətində Konstansa limanından keçməklə yükdaşımalarının inkişafı ilə bağlı üçgünlük "dəyirmi masa" keçirilib.***

Rumıniyadan Gürcüstan və Azərbaycandan keçməklə Mərkəzi Asiya və Çinə, həmçinin əks istiqamətdə yüklərin daşınması müzakirə olunan tədbirdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Gürcüstan Dəmir Yolu" SC-nin baş direktoru Mamuka Baxtadze, "Moldova Dəmir Yolu" DB-nin baş direktoru Yuri Topale və Rumıniya "CFR Marfa Sa"nın baş direktoru Laurensiu Cerceskunun başçılıq etdikləri nümayəndə heyətləri iştirak ediblər.

Səh. 4

### AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASININ TƏLƏBƏLƏRİ "BİBİHEYBƏT" GTZ-DƏ

***Azərbaycan Dövlət Dəniz Akademiyasında tələbələrin donanma və istehsalatla qarşılıqlı əlaqəsinə, onların təcrübələrinin təşkilinə böyük diqqət yetirilir. Tədris, üzmə və istehsalat təcrübələri il ərzində müəyyən olunmuş vaxtlarda keçilir. Bununla yanaşı, ayrı-ayrı qrupların zavodlarımızla tanışlığı da təşkil edilir.***

Səh. 5

### METANOLLA İŞLƏYƏN İLK GƏMİ

***"Stena Line" əsas yanacaq kimi ekoloji cəhətdən təmiz metanoldan istifadə edən dünyanın ilk gəmi şirkətidir. Şirkətin "Stena Germanica" adlı metanolla işləyən ilk gəmisi Kiel-Hötebor marşrutu üzrə hərəkət edir.***

Şirkət metanolun imkanlarına böyük maraq göstərir və onu gələcəyin ən səmərəli yanacağı adlandırır.

Səh. 7

## "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası"na və "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş"ə qoşulmaq barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikası 1982-ci il dekabrın 10-da Yamaykanın Monteqo Bey şəhərində qəbul olunmuş "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası"na və 1994-cü il iyulun 28-də Nyu-York şəhərində qəbul olunmuş "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş"ə qoşulsun.

*İlham ƏLİYEV,*
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 4 mart 2016-cı il.*

## Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli 880 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli 880 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 286; 2006, № 11, maddə 945; 2007, № 6, maddə 601; 2008, № 8, maddə 719, № 11, maddələr 969, 970; 2009, № 2, maddə 64, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2014, №10, maddə 1186, № 12, maddə 1578) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 9.34-1-ci bəndi ləğv edilsin.

*İlham ƏLİYEV,*
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 6 aprel 2016-cı il.*

# PREZİDENT İLHAM ƏLİYEV "ÜFÜQ", "ZƏFƏR" VƏ "TURAN" SƏRNİŞİN GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK EDİB



Azərbaycan neftçilərinin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulan sərnişin gəmilərinin inşasına dair müqavilə 2014-cü ilin mayında imzalanıb. Müvafiq layihə və hazırlıq mərhələsindən sonra tikinti işlərinə 2014-cü ilin oktyabrında başlanılıb. Gəmilərin hamısı körpüdə və dənizdə sınaqlardan uğurla keçib və istismara hazır vəziyyətdədir. Onların hər biri 80 sərnişin tutumuna malikdir. Uzunluğu 38 metr, eni 8 metr, suya oturumu 2,25 metr olan gəmilərin gövdəsi polad, üst tikililəri isə alüminium materialdan hazırlanıb. Yüngül materialların tətbiqi, hərəsinin gücü 1920 kilovat olan iki baş mühərrikin qoyulması sərnişin gəmilərinə saatda 35 kilometrə yaxın sürət yığmağa imkan verir. Bu, mövcud gəmilərlə müqayisədə iki dəfə çoxdur. Eyni zamanda, yeni gəmilər göyərtələrinə 10 tonadək müxtəlif yük də götürə bilir. Beləliklə, neftçilərin və yüklərin dəniz platformalarına daha tez və rahat çatdırılması təmin ediləcək.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Bakı gəmiqayırma zavodunda "Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə inşa edilən "Üfüq", "Zəfər" və "Turan" sərnişin gəmilərinin istismara verilməsi mərasimində iştirak edib.*



Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına zavodda inşa edilən gəmilər barədə məlumat verdilər. Bildirildi ki, hazırda gəmiçiliyin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında tankerlər, quru yük gəmiləri, konteynerdaşıyan gəmilər, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri var.

Dövlətimizin başçısı gəmilərin istismara verilməsini bildirən lenti kəsdi.



*(Davamı 2-ci səhifədə)*

# PREZİDENT İLHAM ƏLİYEV "ÜFÜQ", "ZƏFƏR" VƏ "TURAN" SƏRNİŞİN GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*(Əvvəli 1-ci səhifədə)*

Yeni sərnişin gəmilərinin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı gəmiqayırma zavodunun növbəti uğurudur. Zavod Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılılığının aradan qaldırılmasına xidmət edərək, Xəzər donanmasını müasirləşdirməyə imkan verir. Eyni zamanda, bu zavod ixrac potensialımızın gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Sonra Prezident İlham Əliyev "Üfüq" sərnişin gəmisinin istismara verilməsini bildirən düyməni basdı.

Qeyd edək ki, hazırda Bakı gəmiqayırma zavodunda BP şirkətinin sifarişi ilə "Xankəndi" sualtı tikinti gəmisinin inşası aparılır. Bu, indiyə qədər Bakı gəmiqayırma zavodunda icra olunan ən mühüm sifarişdir. Gəmi Xəzər dənizində xüsusi təyinatlı əməliyyatların həyata keçirilməsi üçün nəzərdə tutulub və DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilir. Gəmidə 600 metr dərinlikdə sualtı quraşdırma və yükqaldırma işləri üçün 900 tonluq əsas kran qoyulacaq. Bundan əlavə, dərin sularda mürəkkəb dalğıc əməliyyatları üçün 18 nəfərlik dalğıc kameraları və məsafədən idarə olunan iki sualtı robotla təchiz ediləcək. Dinamik mövqe idarəetmə sistemi-DP3 ilə təchiz olunmuş gəminin uzunluğu 155, eni 32, bortunun hündürlüyü isə 13 metr təşkil edir. Ümumi gücü 32 min kilovat olan gəmidə 8 mühərrik quraşdırılıb ki, bu da onun layihəyə uyğun olaraq 13,5 uzel sürətini təmin edəcək. 175 nəfərlik kayutlarla təchiz olunan gəminin layihəsi üzrə işlərin artıq 80 faizi yerinə yetirilib və 2017-ci ilin aprelində sifarişçiyə təhvil verilməsi planlaşdırılır.

Son dövrlərdə gəmiçilik sahəsinin inkişafına, gəmiçilik fəaliyyəti ilə əlaqəli infrastrukturun təkmilləşdirilməsinə dövlətimizin başçısı tərəfindən xüsusi diqqət göstərilir və ciddi islahatlar həyata keçirilir. "Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin müxtəlif təyinatlı gəmiləri ölkəmizin ərazisindən keçən tranzit yüklərin daşınmasında mühüm yer tutur və Azərbaycanın regionun nəqliyyat və logistika qovşağına çevrilməsinə, tranzit ölkə kimi Asiya və Avropa arasında yükdaşımalarda mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Gəmiçiliyin strategiyasına müvafiq olaraq, Xəzərdən kənar sularda fəaliyyətin genişləndirilməsi məqsədilə yaxın vaxtlarda hər birinin 5500 ton yükgötürmə qabiliyyəti olan altı quru yük gəmisi istismara veriləcək. Bununla da Xəzərdən kənarda, Qara və Aralıq dənizləri hövzələrində Azərbaycan bayrağı altında üzən gəmilərimizin sayı 11-ə çatacaq.

Gəmilərlə yaxından tanış olan Prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.














# PREZİDENT SEÇKİLƏRİ QARŞIDAN GƏLƏN BAZAR GÜNÜ KEÇİRİLSƏYDİ...

## Azərbaycan əhalisinin 97 faizi Prezident İlham Əliyevə tam etibar edir

***Azərbaycanda prezident seçkiləri qarşıdan gələn bazar günü keçirilsəydi, Bakı şəhərində rəyi soruşulanların mütləq əksəriyyəti - 86,2 faizi bu seçkilərə qatılardı. Respondentlərin 68,1 faizi birmənalı olaraq "səsvermədə iştirak edərdim", 18,1 faizi isə "yəqin ki, iştirak edərdim" cavab variantlarını seçib.***



Bunu "Rəy" Monitorinq Mərkəzinin aprelin 18-19-da Bakı şəhərində 800 respondent arasında keçirdiyi sorğunun nəticələri göstərib.

Məlum olub ki, paytaxt əhalisinin böyük əksəriyyəti - 92,8 faizi öz səsini İlham Əliyevə verərdi. Rəyi soruşulanların 97 faizi İlham Əliyevə tam etibar etdiyini, 89 faizə yaxını İlham Əliyevin onlar kimi insanların maraqlarına cavab verdiyini qeyd edib.

Sorğu, həmçinin müəyyən edib ki, respondentlərin 78,8 faizi prezident postunda İlham Əliyevə alternativ görmür.

Sorğu zamanı əldə edilmiş məlumatların təhlili göstərir ki, dövlət başçısının belə yüksək reytinqə və etimada sahib olması bütövlükdə uğurlu xarici siyasətin, iqtisadi inkişafla bağlı atılan addımların, milli ordunun əldə etdiyi uğurların və s. nəticəsidir. Belə ki, rəyi soruşulanların əksəriyyəti Prezident İlham Əliyevin xarici siyasətini dəstəkləyir: 87,3 faiz bu siyasəti "çox yaxşı" və ya "əsasən yaxşı" qiymətləndirib.

Respondentlərdən, həmçinin xarici siyasətimizdəki hansı hadisəni son vaxtların ən uğurlu hadisəsi hesab etdikləri soruşulub və cavab üçün bir neçə variant seçmək imkanı verilib.

Nəticədə 65,5 faiz xarici siyasətin ən uğurlu hadisəsi kimi Prezident İlham Əliyevin Barak Obamanın dəvəti ilə dördüncü Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün Vaşinqtona səfər etməsini göstərib. Təxminən o qədər - 63,8 faiz respondent son vaxtların ən uğurlu xarici siyasət hadisəsi kimi Prezident İlham Əliyevin Ankara səfərini seçib. Özü də rəyi soruşulanların əksəriyyəti bu səfəri Türkiyəyə və terror aktları ucbatından Bakıya səfərini iki dəfə təxirə salmış Prezident Rəcəb Tayyib Ərdoğana dəstək kimi qiymətləndirib. Daha 38 faiz xarici siyasətdəki uğurlu addımlar sırasında dövlətimizin başçısının İrana səfərini, 19 faiz isə Azərbaycan, Rusiya və İranın xarici işlər nazirlərinin Bakıdakı görüşünü göstərib.

Araşdırmaya görə, Dağlıq Qarabağda gərginliyin artması fonunda İlham Əliyevə Ali Baş Komandan kimi dəstək də artıb - ona Ali Baş Komandan kimi rəyi soruşulanların 97 faizi etimad göstərir.

Prezident və hökumətin iqtisadi sahədə atdığı addımlar da Bakı sakinləri arasında müsbət qarşılanır. Belə ki, 28 faiz respondent Azərbaycandakı iqtisadi vəziyyəti "yaxşı", 44 faiz "orta" və cəmi 18 faiz "pis" qiymətləndirib. Daha 10 faiz sualı cavablandırmaqda çətinlik çəkib. Paytaxt sakinlərinin əksəriyyəti əmindir ki, Prezident İlham Əliyevin sərəncam və tapşırıqları iqtisadi sahədə vəziyyəti kökündən dəyişir və ölkəni dünya bazarında neftin ucuzlaşmasının və qlobal iqtisadi böhranın mənfi təsirindən qoruyur.

Rəyi soruşulanların 62 faizi hesab edir ki, Prezident İlham Əliyevin sahibkarlıq sahəsində yoxlamaların dayandırılması və lisenziyalaşdırmanın sadələşdirilməsi barədə Sərəncamı kiçik və orta sahibkarlığın inkişafına kömək edəcək. Bu zaman 17,7 faiz hesab edir ki, bu tədbirlər, yəqin, kömək etməyəcək, 8,2 faiz isə əmindir ki, bunun heç bir köməyi olmayacaq.

Bakı sakinlərinin 68,2 faizi hesab edir ki, bu tədbirlər kiçik və orta sahibkarlıq sahəsində lazımsız yoxlamaları aradan qaldıracaq, 16 faiz isə bu nikbinliyi bölüşmür - onların fikrincə, bu tədbirlər müvəqqəti xarakter daşıyacaq və problemi kökündən həll etməyəcək. 15,8 faiz cavab verməkdə çətinlik çəkib.

Respondentlər Prezidentin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi, şəffaflığın təmin olunması və inhisarçılığın aradan qaldırılması istiqamətində atdığı addımları da müsbət qarşılayır. 61 faiz hesab edir ki, bu, kiçik və orta sahibkarlığın inkişafına kömək edəcək (25,3 faiz buna əmindir, 35,7 faiz isə hesab edir ki, "yəqin, kömək edəcək"). Daha 18,7 faiz isə bunun əksini düşünür (8,5 faiz – "kömək etməyəcək", 10,2 faiz – "yəqin kömək etməyəcək" cavablarını seçib). 20 faizdən artıq respondent bu sualı cavablandırmaqda çətinlik çəkib.

Sorğu ilə müəyyən edilib ki, milli valyutanın devalvasiyasından sonra müvəqqəti yaranmış bədbinlik artıq aradan qalxmaqdadır. Bakı sakinlərinin 63 faizi hesab edir ki, dövlətin gördüyü tədbirlər milli valyutanın məzənnəsini sabitləşdirməyə imkan verir. 15 faiz respondent bununla bağlı o qədər də nikbin deyil, 20 faiz isə sualı cavablandırmaqda çətinlik çəkib.

Beləliklə, sorğunun nəticələri göstərir ki, paytaxt əhalisi həm dövlətin xarici siyasətini, həm də iqtisadi artım üçün atılan addımları müsbət qiymətləndirir.

Omnibus tipli ictimai rəy sorğusu "Rəy" Monitorinq Mərkəzi tərəfindən Bakı şəhərində bu il aprelin 18-19-da keçirilib. Yaşayış yeri üzrə üzbəüz müsahibə yolu ilə keçirilən sorğuya yaşı 18 və yuxarı olan 800-ə yaxın respondent cəlb edilib. Nisbi xəta 3,5 faizdir.

# TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT KONSORSİUMU YARADILIB



***Bakıda Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun yaradılması haqqında müqavilə imzalanıb, Azərbaycan Konsorsiumun Müşahidə Şurasının sədri seçilib.***

Bakıda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun operator şirkətlərinin yığıncağı keçirilib və Azərbaycandan "ADY Express" MMC və "ACSC Logistics" MMC, Qazaxıstandan "KTZ Express" AC, Gürcüstandan "Trans Qafqasus Terminals" MMC Konsorsiuma üzv kimi daxil olub.

Yığıncaqda Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun idarəetmə strukturu, Müşahidə Şurasının yaradılması və Şuraya sədr seçilməsi məsələləri də müzakirə olunub.

Aparılan danışıqlar nəticəsində Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun Müşahidə Şurasının yaradılması haqda qərar qəbul olunub. Müşahidə Şurasına, konsorsiuma daxil olan hər üzv şirkətindən bir nümayəndə daxil olub.

Müşahidə Şurası formalaşandan sonra, şuraya sədr seçilib. Bu vəzifəyə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini İqbal Hüseynov seçilib. Yığıncağın sonunda tərəflər arasında protokol imzalanıb. Eyni zamanı qərara alınıb ki, marşrut üzrə yük qatarlarının hərəkət cədvəli may ayında müəyyən ediləcək.

Qeyd edək ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə hərəkət edən "Nomad Ekspress" blok qatarı orta hesabla 10-12 günə Çindən Avropaya yükləri çatdırır. Bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi yekunlaşdıqdan sonra Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yükötürmə qabiliyyəti artacaq və çatdırılma vaxtı qısalacaq.

# ABŞ RƏSMİSİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANINDA "NAXÇIVAN" GƏMİ-BƏRƏSİ İLƏ DƏ TANIŞ OLUB





***Aprelin 15-də ABŞ dövlət katibinin iqtisadi və biznes məsələləri üzrə köməkçisinin məsul müavini Kurt Tonq Azərbaycana səfəri çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə tanış olub.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru qonağa bildirib ki, hazırda Azərbaycanın iqtisadi siyasətinin əsas prioriteti qeyri-neft sektorunun inkişafıdır. Bu sahənin ən proqressiv layihələrindən biri isə Bakı Limanı və onun ətrafında yaradılacaq Azad Ticarət Zonasıdır (ATZ).

Baş direktor Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 mart 2016-cı il tarixli Sərəncamına əsasən yaradılan ATZ haqqında qonağa məlumat verib. ABŞ rəsmisinin diqqətinə çatdırılıb ki, ATZ-nin yaranması ilə Yeni Bakı limanı ətrafında nəqliyyat və logistika infrastrukturu qurulacaq, neft-kimya və farmasevtik sahələr yaradılacaq, müxtəlif çeşiddə malların istehsalı, qablaşdırılması, markalanması və sair kimi işlər həyata keçiriləcək.

T.Ziyadov Bakı Limanından aşırılan yüklərin 85 faizinin tranzit yükləri olmasını və Limanın Çin, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyə bazarlarına yaxın olması faktını diqqətə çatdıraraq söyləyib ki, bu, Limanın Avrasiyada aparıcı ticarət, nəqliyyat və logistika mərkəzinə çevrilməsini reallaşdıracaq.

Səfər zamanı Kurt Tonq Yeni Bakı Limanı Kompleksinin birinci tikinti mərhələsi çərçivəsində artıq istifadəyə verilən bərə terminalının işi, Avropadan Mərkəzi Asiya istiqamətində hərəkət edən TIR-lar üçün yaradılan əlverişli şəraitlə, prosedurlarla, şəffaf və nümunəvi işlərlə tanış olub. ABŞ rəsmisi "Naxçıvan" gəmisində də olub.






# KRAN GƏMİLƏRİNƏ XÜSUSİ DİQQƏT YETİRİLİR



***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin kran gəmiləri dənizdə həyata keçirilən neft-qaz əməliyyatlarının təminatında əhəmiyyətli rol oynayırlar. Bu tip gəmilərə daim tələbat olduğundan, onların texniki vəziyyətinə xüsusi diqqət yetirilir, təmir prosesində bütün aidiyyəti qurumlarımız yaxından iştirak edirlər.***

Bu günlərdə 40 tonluq "Atlet-5" kran gəmisi "Bibiheybət" Gəmi Təmiri zavodunda əsaslı təmirdən çıxaraq istismara qayıdıb. Gəminin gövdəsi, mexanizmləri, o cümlədən kran qurğuları yüksək səviyyədə təmir olunub, heyətin iş və həyat şəraiti müasir tələblərə uyğun təmin edilib.

Hazırda zavodun körpüsündə 100 tonluq "Şirvan-2" kran gəmisinin əsaslı təmiri yekunlaşmaq üzrədir. O da istismara qaytarıldıqdan sonra tərəfdaşlarımızın sifarişlərini yerinə yetirməyə başlayacaq.

Gəmi təmirçilərimiz qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən bacarıqla gəlmək əzmindədirlər.

# NƏQLİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNUB

***Avropa İttifaqı ilə Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlığın möhkəmləndirilməsi məsələsi müzakirə olunub.***

Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müzakirələr aprelin 20-də Nəqliyyat Nazirliyində Avropa İttifaqı nümayəndə heyəti ilə görüşü zamanı baş tutub.

Avropa Komissiyasının genişlənmə və qonşuluq siyasəti üzrə baş direktorluğunun Şərq qonşuluğunda regional proqramlara məsul bölmənin başçısı Vassilis Maraqosun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə nazir müavini Musa Pənahov Azərbaycanda yol-nəqliyyat kompleksi sahəsində həyata keçirilən infrastruktur layihələri, aparılan struktur islahatları barədə qonaqlara məlumat verib.

Nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirildiyini diqqətə çatdıran Musa Pənahov ölkənin tranzit potensialının artırılması, tranzit daşımaların asanlaşdırılması istiqamətində tədbirlər görüldüyünü bildirib.

Görüş zamanı Azərbaycanda nəqliyyat sisteminin daha da inkişaf etdirilməsinin, daşımaların təhlükəsizliyinin, infrastrukturun yeniləşdirilməsinin vacibliyi vurğulanıb, nəqliyyat əlaqələrinin təkmilləşdirilməsinin gələcək strategiyasına dair Aİ-nin təqdim etdiyi təkliflər və yeni layihələr ətrafında müzakirələr aparılıb.



# GƏMİLƏRİMİZ RUSİYA BAYRAĞI ALTINDA ÜZƏN "PALFLOT-2" TANKERİNDƏ YANĞININ NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASINDA YAXINDAN İŞTİRAK EDİBLƏR

***Aprelin 23-də Rusiya Federasiyası bayrağı altında Türkmənistanın Alaca limanı istiqamətində yüksüz hərəkətdə olan "PALFLOT-2" tankerində sahildən təqribən 110 kilometr məsafədə yanğın baş verməsi barədə Azərbaycan Dövlət Dəniz Administrasiyasına "SOS" siqnalı daxil olub. Dərhal Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin müvafiq qüvvələri hadisənin nəticələrinin aradan qaldırılması əməliyyatına cəlb olunub.***

Görülmüş operativ tədbirlər nəticəsində yanğın saat 18:06-da tam söndürülüb.

Qəzanın nəticələrinin aradan qaldırılmasında "Mİ-17-1V" və "KA-32" helikopterləri, "Vixr-5", "Caspian Voyager", "Caspian Protector", "İslay", "Jura" və s. gəmilər iştirak ediblər.





Tankerin 11 nəfər heyət üzvündən 10 nəfər xilas edilib. Bir nəfər - baş mexanik Kramcuk Andrey Vladimiroviç isə itkin düşüb.

Yanğın söndürüldükdən sonra Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin "Vixr-5" və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "LÜTOQA" gəmiləri Rusiya Federasiyası bayrağı altında üzən "PALFLOT-2" tankerini yedəyə alaraq Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavoduna doğru istiqamət götürüblər.

***"DƏNİZ"***

## Yanvar-fevral aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 7826,4 min ton yük daşınıb

***2016-cı ilin yanvar-fevral aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük daşınması 7826,4 min ton, yük dövriyyəsi isə 1509,4 milyon ton-kilometr olub.***

Yüklərin 5040,9 min tonu və ya 64,4 faizi avtomobil nəqliyyatı, 2063,2 min tonu və ya 26,4 faizi dəmir yolu nəqliyyatı, 722,3 min tonu və ya 9,2 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Daşınmış yüklərin 15 faizini və ya 1172,7 min tonunu tranzit yüklər təşkil edib.

2016-cı ilin yanvar-fevral aylarında dəhliz vasitəsilə 54,9 milyon sərnişin daşınıb, sərnişin dövriyyəsi 1114,4 milyon sərnişin-kilometr olub. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə sərnişin daşınması 2,2 faiz, sərnişin dövriyyəsi isə 1,1 faiz artıb. Bu sahədəki artım avtomobil nəqliyyatı ilə daşımalar hesabına baş verib.




# “DƏYİRMİ MASA” KEÇİRİLİB

***Rumıniyanın Konstansa şəhərində Avropa-Asiya-Avropa istiqamətində Konstansa limanından keçməklə yükdaşımalarının inkişafı ilə bağlı üçgünlük “dəyirmi masa” keçirilib.***

Rumıniyadan Gürcüstan və Azərbaycandan keçməklə Mərkəzi Asiya və Çinə, həmçinin əks istiqamətdə yüklərin daşınması müzakirə olunan tədbirdə “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov, “Gürcüstan Dəmir Yolu” SC-nin baş direktoru Mamuka Baxtadze, “Moldova Dəmir Yolu” DB-nin baş direktoru Yuri Topale və Rumıniya “CFR Marfa Sa”nın baş direktoru Laurensiu Cerceskunun başçılıq etdikləri nümayəndə heyətləri iştirak ediblər.

İştirakçılar Rumıniyanın Konstansa və Gürcüstanın Poti limanlarından keçməklə Gürcüstan, Azərbaycan və İran, eləcə də əks istiqamətdə yük daşımalarının təşkili imkanları, problemli məsələlərin həlli yolları, həmçinin görülən işlər barədə müzakirələr aparıblar.



Tədbirin sonunda tərəflər arasında memorandum imzalanıb.

Həmçinin Azərbaycan nümayəndə heyəti Rumıniyanın Nəqliyyat Nazirliyinin TRASECA milli katibliyinin baş katibi Maria Grigore ilə danışıqlar aparıb, Azərbaycanın tranzit imkanları, ölkəmizdən keçən nəqliyyat dəhlizləri və onların potensialı, bu sahədə görülən işlər, imzalanan müqavilələr haqda məlumat verilib, Ruminiya ilə bu sahədə əməkdaşlıq məsələləri müzakirə olunub.

Rumıniyanın İran, Mərkəzi Asiya və Çınlə ticarət dövriyyəsi kifayət qədər böyükdür: İran İslam Respublikası ilə Rumıniya arasında – 117.2 milyon dollar, Çin ilə Rumıniya arasında – 4 milyard dollar, Türkmənistan ilə Rumıniya arasında – 43.5 milyon dollar, Özbəkistan ilə Rumıniya arasında – 26.5 milyon dollar, Qazaxıstan ilə Rumıniya arasında – 3.2 milyon dollar, Qırğızıstan ilə Rumıniya arasında – 5.5 milyon dollar, Pakistan ilə Rumıniya arasında – 194.2 milyon dollar, Tacikistan ilə Rumıniya arasında – 836 000 dollar. Bu yüklərin, Azərbaycandan keçməklə, daşınması ən əlverişli yol sayılır. Rumıniya nümayəndələri də bu yola böyük maraq göstərirlər.

Azərbaycanın tranzit imkanlarının genişləndirilməsi, əlavə yüklərin cəlb olunması istiqamətində, nəqliyyat dəhlizlərinin inkişafı üçün bu vaxta qədər bir çox vacib danışıqlar aparılıb, müqavilələr imzalanıb. Rumıniyanı maraqlandıran Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının inkişafı istiqamətində bu ilin 3 ayı ərzində mühüm işlər görülüb. Aprelin 12-də Bakıda Şərq-Qərb Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumu yaradılıb, martın 15-16-da “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması istiqamətində işçi qrupunun görüşü keçirilib, sənədlər imzalanıb, yanvarın 12-də Bakıda “Şimal-Cənub” Nəqliyyat Dəhlizinə həsr olunmuş Beynəlxalq forum keçirilib. Nəqliyyat dəhlizlərinin iştirakçı dövlətləri, operator şirkətləri ilə müqavilələr imzalanıb, vahid tariflər müəyyən edilib.

# “BİR QURŞAQ, BİR YOL”

***Hazırda 70-dən çox ölkə və beynəlxalq təşkilat “Bir Qurşaq, Bir Yol” layihəsi çərçivəsində əməkdaşlıq etməyə hazır olduğunu bildirib.***




“Sinxua” agentliyi xəbər verir ki, Azərbaycan da daxil olmaqla, təxminən 30 ölkə “Bir Qurşaq, Bir Yol” birgə layihəsinin həyata keçirilməsi ilə bağlı Çinlə əməkdaşlıq haqqında müqaviləni imzalayıb. Çin Kommersiya Nazirliyinin məlumatına görə, 2015-ci ildə Çin müəssisələri layihənin əhatə etdiyi 49 ölkəyə birbaşa investisiyalar yönəldiblər. Kapital qoyuluşunun həcmi 14,82 milyard ABŞ dolları təşkil edib. Bu göstərici əvvəlki illə müqayisədə 18,2 faiz çoxdur.

Petersonun Dünya İqtisadiyyatı İnstitutunun elmi əməkdaşı Simeon Dyankov bildirib ki, Çinin təşəbbüsü olan “Bir Qurşaq, Bir Yol” (“İpək Yolunun İqtisadi Qurşağı” və “XXI əsrin Dəniz İpək Yolu”) təkcə Asiya və Avropanın bazarlarını bir-birinə birləşdirməyəcək, həm də “Bir Qurşaq, Bir Yol” boyu ölkələrin dünya iqtisadiyyatına inteqrasiya etməsini sürətləndirəcək. Bunun sayəsində bir çox dövlətlər böyük fayda əldə edəcəklər.

“Normand ekspress” ilk test konteyner qatarı “Şixeztsı (Çin)-Dostıq-Aktau-Ələt limanı” Beynəlxalq Transxəzər Marşrutu ilə hərəkət edərək 2015-ci il avqustun 3-də Bakı Beynəlxalq Dəniz Limanına çatıb. Bu ilin yanvar ayından Beynəlxalq Transxəzər Marşrutuna Ukrayna da qoşulub. Ukrayna Mərkəzi Asiya ölkələri və Çinə iki qatar göndərib. Bu qatarlar Ukrayna-Gürcüstan-Azərbaycan-Qazaxıstan-Çin marşrutu ilə hərəkət edib.

# TEXNİKİ ƏMƏKDAŞLIQ BARƏDƏ ANLAŞMA MEMORANDUMU İMZALANIB







***“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC (Bakı Limanı) Sinqapurda SMRT International Pte MMC və Ectivise Solutions Pte MMC ilə yeni Bakı Limanının əməliyyat səmərəliliyini gücləndirmək məqsədilə texniki əməkdaşlıq barədə anlaşma memorandumu imzalayıblar.***

Limandan AZƏRTAC-a bildirilib ki, memorandum Bakı Limanının baş direktoru Taleh Ziyadov, Ectivise Solutions MMC-nin baş icraçı direktoru Arthur Cheong və SMRT International MMC-nin icraçı direktoru Goh Eng Kiat tərəfindən imzalanıb.

İki Sinqapur şirkəti Bakı Limanında və Azad Ticarət Zonasının əməliyyatlarında Qrup Avtomatik Tranzit Sistemi (süni intellektlə sürücüsüz idarə olunun nəqliyyat vasitəsi), Vahid Əməliyyat və Nəzarət Mərkəzi, Avtomatlaşdırılmış Anbar və Axtarış Sistemi, Portal Təhlükəsizlik Sistemi və digər yeni texnologiya və innovativ sistemlərin təqdim edilməsi istiqamətində dəstək verəcək. Bu əməkdaşlıq nəticəsində regionda ilk dəfə sürücüsüz daşıma, yəni öz-özünü idarə edən və süni intellektə sahib nəqliyyat vasitələrinin istifadəsi də məhz Bakı Limanında tətbiq olunacaq.

“Bu memorandum Bakı Limanına Xəzər regionunda nümunəvi və texnoloji baxımdan ən müasir limana çevrilmək məqsədinə daha tez çatmağa kömək edəcəkdir. Biz Bakı Limanının müştəriləri və istifadəçiləri üçün ekoloji cəhətdən təmiz texnoloji həllərin yaradılması missiyasında Sinqapurlu tərəfdaşlarımızın dəstəyini yüksək qiymətləndiririk”, - deyə baş direktor bildirib.

Sinqapurda ilk vahid ictimai metro, avtobus və taksi idarəetmə sistemi quran SMRT International MMC, SMRT Korporasiya MMC-nin tam mülkiyyətində olan törəmə şirkətdir. SMRT International əməliyyatlar və təmir, mühəndislik, konsaltinq və layihə idarəedilməsi üzrə beynəlxalq səviyyədə ixtisaslaşıb. Ectivise Solutions genişmiqyaslı şəbəkə planlaşdırılması, Passiv Optik Şəbəkələr və İnteqrasiya olunmuş Optik Magistral Arxitekturası kimi İKT sahəsində infrastruktur texnologiyaları üzrə peşəkar xidmətlər göstərir.

Azərbaycan hökuməti hal-hazırda Bakının Ələt qəsəbəsi yaxınlığında özündə nəqliyyat və logistika sənayesi, əczaçılıq klasteri, ümumi istifadə üçün neft təchizatı bazası obyektləri, o cümlədən emaletmə, qablaşdırma və etiketləmə ərazilərini birləşdirən Azad Ticarət Zonası da daxil olmaqla müasir liman kompleksi inşa edir. Bu ölkə Prezidenti İlham Əliyevin Azərbaycanın qeyri-neft sektorunun gücləndirilməsi istiqamətində qurulan mərkəz strategiyanın (“hub” strategiyası) bir hissəsidir. Avropa və Asiyanın qovşağında, Çin, Türkiyə, İran və Rusiya kimi böyük bazarların yaxınlığında yerləşən yeni Bakı Limanı Avrasiyanın aparıcı ticarət və logistika qovşağına çevrilməyi hədəfləyir.

SMRT International Pte MMC və Ectivise Solutions Pte MMC mütəxəssisləri yeni Bakı Limanına səfər ediblər, Ələt terminalı və onun ətrafında yaradılması nəzərdə tutulan Azad Ticarət Zonasının ərazisi ilə tanış olublar.

# “GƏMİLƏRDƏ ƏMNİYYƏTLİ ƏMƏLİYYATLAR VƏ ÇİRKLƏNMƏNİN QARŞISININ ALINMASI ÜÇÜN BEYNƏLXALQ İDARƏETMƏ MƏCƏLLƏSİNƏ DAİR AUDİTOR KURSLARI” MÖVZUSUNDA 5 GÜNLÜK TƏLİM KEÇİRİLMİŞDİR

***Dövlət Dəniz Administrasiyasında cari ilin 18–22 aprel tarixlərində İspaniyanın dəniz nəqliyyatı sahəsi üzrə mütəxəssislərinin iştirakı ilə təlim keçirilmişdir. Təlimlər gəmilərdə əmniyyətli əməliyyatlar və çirklənmənin qarşısının alınması məsələlərini əhatə etməklə auditor kursları formasında təşkil olunmuşdur. Bu təlimlər İspaniyanın dəniz nəqliyyatı sahəsi üzrə mütəxəssisləri tərəfindən həm nəzəri, həm də Əmniyyətli İdarəetmə üzrə Beynəlxalq Məcəllənin (ISM) tətbiqi ilə bağlı gəmidə praktiki şəkildə həyata keçirilmişdir.***







İspan mütəxəssisləri Jose Antonio Conde, Carlos Romero 5 gün ərzində təlimə qatılan iştirakçılara əmniyyətli idarəetmə sistemləri, idarəetmə sistemlərinə inteqrasiya məsələlərinə dair biliklər vermişdir. Bu və ya digər müzakirələr zamanı bir sıra Beynəlxalq Konvensiyaların tələblərinə diqqət ayrılmışdır.

Təlimin böyük bir hissəsi Əmniyyətli İdarəetmə üzrə Beynəlxalq Məcəllənin tələbləri və bundan irəli gələn məsələlərə həsr olunmuşdur. Demək olar ki, təlim-məşğələlərin əksər günlərində adıçəkilən məcəllə müzakirələrin bazası kimi istifadə olunmuşdur. Ayrı-ayrı bəndlər nəzərdən keçirilmiş, hansı durumlarda necə davranılmasının məcəllənin göstəriş və tələblərindən irəli gələrək tənzimlənilməsi, vacib olan yanaşmalara diqqət ayrılmışdır.

İnsan faktoru, səhvlər və səbəblər, riskin idarəedilməsi, insidentlərin öyrənilməsi və nəticə etibarı ilə proseslərin stabilləşdirilməsi və s. istiqamətlər üzrə də maraqlı fikir mübadiləsi aparılmışdır. Bundan başqa texniki və işlək tələblər, Dövlət Bayraq idarəetmə sistemləri və prosedur modellər, əmniyyətli idarəetmə sistemlərinin qiymətləndirilməsi və auditin aparılması da təlimin gündəliyində yer almışdır. Təlimlərin sonunda iştirakçılar komanda şəklində işin təşkilini nəzərdən keçirmiş, keyfiyyət göstəricilərinin bağlılığı və qərarların qəbulu barədə aktiv müzakirələrə qatılmışlar.

Sonda isə təlim iştirkaçılarına əmniyyətli idarəetmə sistemləri üzrə qiymətləndirilmənin həyata keçirilməsini nəzərdə tutan audit və daxili audit sertifikatları təqdim olunmuşdur.

# AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASININ TƏLƏBƏLƏRİ "BİBİHEYBƏT" GTZ-DƏ

***Azərbaycan Dövlət Dəniz Akademiyasında tələbələrin donanma və istehsalatla qarşılıqlı əlaqəsinə, onların təcrübələrinin təşkilinə böyük diqqət yetirilir. Tədris, üzmə və istehsalat təcrübələri il ərzində müəyyən olunmuş vaxtlarda keçilir. Bununla yanaşı, ayrı-ayrı qrupların zavodlarımızla tanışlığı da təşkil edilir.***













Aprelin 15-də Akademiyanın rus bölməsinin 2 qrupunda oxuyan gələcək elektromexaniklər "Bibiheybət" gəmi təmiri zavodunda olublar. Təbii ki, gənclərə əvvəlcə təhlükəsizlik texnikası üzrə təlimat keçilib, fərdi mühafizə vasitələri paylanıb.

Sonra tələbələr zavodun sexləri, elektrik mühərriklərinin və digər mexanizmlərin təmir prosesi ilə yaxından tanış oldular. Təcrübəli mütəxəssislər gəncləri maraqlandıran suallara cavab veriblər. "Bibiheybət" GTZ-də təmiri yekunlaşan "Şirvan-2" kran gəmisində görülən işlər, maşın bölməsi və sükan rubkasındakı mexanizm və avadanlıqlar tələbələrin xüsusi marağına səbəb olub. Gəminin kapitanı və heyəti gənclərə ətraflı məlumat verməklə yanaşı, öz tövsiyələrini də çatdırıblar. Zavodla tanışlıqdan razı qalan tələbələr belə ekskursiyaların tez-tez təşkil olunması ilə bağlı arzularını bildiriblər. Yəqin ki, elə də olacaq.

***Vüqar SADIQOV***

# QƏZA ZAMANI GƏMİNİN GÖYƏRTƏSİNDƏ 500-DƏN ÇOX İNSANIN OLDUĞU İDDİA EDİLİR

***Aprelin 16-da Aralıq dənizinin Liviya və İtaliya arasındakı sahəsində baş verən gəmi qəzasında həlak olanların sayı 500 nəfərə çata bilər.***



Euronews telekanalı xəbər verir ki, bu barədə BMT-nin ali komissarının qaçqınların işi üzrə idarəsinin nümayəndəsi Vilyam Şpindler bildirib. O, deyib: "Qəza zamanı gəminin göyərtəsində nə qədər insanın olduğu dəqiq məlum deyil. Dindirilən şahidlər onların 500-dən çox olduğunu iddia edirlər. Son həftələr Liviyadan İtaliyaya keçmək istəyən insanların sayının kəskin şəkildə artdığını görür və bundan ehtiyat edirik. Belə ki, bu, dənizi keçmək üçün əlverişli mövsümün hələ başlanğıcıdır. Havaların yaxşılaşması ilə Aralıq dənizini keçməyə daha çox insan cəhd edəcək".

Son günlər Liviya hökuməti Somali, Efiopiya, Misir və Sudandan gələrək yaxşı həyat ardınca təhlükəli Avropa səyahətinə çıxmağa hazırlaşan xeyli sayda insanı saxlamağa müvəffəq olub. Onlar avtobuslara doldurularaq yaşadıqları ölkələrə deportasiya edilib.

# TANAP üçün 16 gəmi ilə 2 min 603 boru daşınıb

***Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək Trans-Anadolu qaz boru kəməri (TANAP) üçün bu vaxtadək Hopa limanına 16 gəmi ilə 2 min 603 boru daşınıb.***




Bu barədə Hopa limanının baş direktoru Meriç Burçin Özer məlumat verib. O bildirib ki, 2015-ci ildə limana 12 gəmi ilə ümumi çəkisi 19 min 746 ton olan 2 min 111 ədəd boru gətirilib. Bu ilin ilk 3 ayında



isə Hopa limanına 4 gəmi ilə ümumi çəkisi 4 min 492 ton olan 492 ədəd boru çatdırılıb. Beləliklə indiyədək limana TANAP üçün 16 gəmi ilə 2 min 603 boru daşınıb.

Hopa limanının baş direktoru qarşıdakı aylarda da yeni gəmilərlə boruların gəlməyə davam edəcəyini deyib: "Limanın ərazisində saxlanılan borular TANAP-ın Qars vilayətindəki tikinti sahələrinə quru yolu ilə aparılır və bu işlər hazırda da davam etdirilir".

Qeyd edək ki, TANAP-ın uzunluğu (19 kilometri Mərmərə dənizindən keçməklə) ümumilikdə 1850 kilometr olacaq. Boru kəməri Türkiyənin Gürcüstanla sərhədindəki Ardahan vilayətinin Posof mahalından başlayaraq 21 vilayətdən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanacaq.



TANAP-ın 2018-ci ildə istismara verilməsi planlaşdırılır. TANAP-la Avropaya 10 milyard, Türkiyəyə isə 6 milyard kubmetr Azərbaycan qazının nəqli nəzərdə tutulur. Boru kəmərinin ötürücülük qabiliyyətinin gələcəkdə illik 24 milyard kubmetrə, daha sonra isə 31 milyard kubmetrə çatdırılması planlaşdırılır. TANAP layihəsinin ümumi dəyəri 10 milyard dollar qiymətləndirilir. Layihədə 1,2 milyon ton ağırlığında ümumilikdə 150 min polad boru istifadə olunacaq.

TANAP Cənubi Qafqaz Boru Kəmərindən alacağı təbii qazı 2020-ci ilin əvvəlindən etibarən TAP boru kəmərinə qoşularaq Yunanıstan, Albaniya və İtaliyadan keçməklə Avropaya çatdıracaq.

TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub qaz dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti (QSC) - 58 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

# AZOV DƏNİZİNDƏ SAYA OTURMUŞ TÜRKİYƏNİN "ALYASKA" YÜK GƏMİSİ SAHİLƏ GƏTİRİLİB

***Azov dənizinin Taqanroq körfəzində saya oturmuş Türkiyənin "Alyaska" yük gəmisi sahilə gətirilib. Bu barədə Rusiya Fövqəladə Hallar Nazirliyinin (FHN) Rostov Regional İdarəsinin mətbuat xidməti məlumat yayıb.***



Taxta-şalban daşıyan "Alyaska" gəmisi aprelin 24-də elektrik avadanlığında nasazlıq üzündən Taqanroq körfəzində saya oturmuşdu. Gəmidə 11 nəfərdən ibarət heyət olduğu bildirilir.

# DƏNİZÇİLƏR FİLİPPİN YAXINLIĞINDA NAMƏLUM ŞƏXSLƏR TƏRƏFİNDƏN GİROV GÖTÜRÜLÜB

***Dörd nəfər indoneziyalı dənizçi Filippin yaxınlığında naməlum şəxslər tərəfindən girov götürülüb. Bu barədə "New Straits Times" qəzeti məlumat yayıb.***



Məlumata görə, gəminin göyərtəsində 10 nəfər olub. Hadisə yerinə gələn Malayziyanın sahil mühafizə dəstəsi onlardan altısını xilas edə bilib. Bununla yanaşı, Sabah ştatının polis rəisi Abdul Raşid Harunun bildirdiyinə görə, dənizçilərdən biri yaralanıb və yerli xəstəxanaya yerləşdirilib.

Bu, son ayda Filippin, Malayziya və İndoneziya arasındakı rayonda qeydə alınan gəmilərə üçüncü hücum hadisəsidir. Martın sonlarında 10 İndoneziya vətəndaşı, bir həftə sonra isə dörd Malayziya dənizçisi girov götürülmüşdü.

İlkin məlumatlara görə, bu hadisələrin arxasında "Əl-Qaidə" beynəlxalq terror təşkilatının Filippindəki özəyi olan "Abu-Sayyaf" terrorçu qruplaşması dayanır.

***Vüqar Ağayev***

# "PETLİM" KONTEYNER LİMANININ AÇILIŞI SENTYABRDA OLACAQ



***SOCAR-ın Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda inşa etdiyi "Petlim" konteyner limanının açılışı sentyabrda olacaq.***

Bu barədə SOCAR-ın prezidenti Rövnəq Abdullayev jurnalistlərə müsahibəsində məlumat verib. R.Abdullayev qeyd edib ki, limanı idarə edəcək şirkət artıq sınaq işlərinə başlayıb. Limanın 1-ci və 2-ci fazaları sentyabrda istifadəyə veriləcək.

Qeyd edək ki, ilkin mərhələdə ötürücülük qabiliyyəti 1,5 milyon TEU olan "Petlim" hazırda Türkiyənin üçüncü, Egey dənizinin ilk böyük limanıdır. 2014-cü ildə Dövlət Neft Şirkətinin Türkiyədəki ən böyük aktivi və səhmlərinin 61,32 faizi SOCAR-a məxsus olan "Petkim PetroKimya Holding A.Ş."nin törəmə şirkəti "Petlim Limancılık Ticaret A.Ş." öz səhmlərinin 30 faizini 300 milyon dollara "Goldman Sachs" şirkətinə satıb. Hazırda limanın 70 faizlik hissəsi SOCAR-a, 30 faizlik hissəsi isə "Goldman Sachs"a aiddir. "Petlim"i ilk 30 il müddətində Hollandiyanın "APM Terminals" şirkəti idarə edəcək.

# DƏNİZ HİSSƏSİNDƏ İSTİFADƏ OLUNACAQ BORULARIN AĞIRLIĞI 71 MİN TON TƏŞKİL EDİR

***"Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsi üzrə Almaniyanın "Salzgitter Mannesmann International GmbH" şirkəti ilə kəmərin dəniz hissəsində istifadə ediləcək boruların alınmasına dair müqavilə imzalanıb. Bu barədə TAP-ın saytında məlumat verilir.***

Müqaviləyə əsasən, "Salzgitter Mannesmann International GmbH" TAP-ın Albaniya və İtaliyanın cənub sahili arasından, Adriatik dənizindən keçəcək 105 kilometr uzunluğunda 36 düymlük hissəsinin borularını təmin edəcək. Müqavilədə şirkətin borularla yanaşı, digər dəniz qurğularını da təmin etməsi nəzərdə tutulur. Dəniz hissəsində istifadə olunacaq boruların ağırlığı 71 min ton təşkil edir.

Qeyd edək ki, TAP boru kəməri ilə Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qaz Avropaya nəql ediləcək. Uzunluğu təxminən 878 kilometr olan TAP Türkiyə ilə Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində Trans-Anadolu qaz boru kəmərinə (TANAP) birləşəcək. TAP layihəsi Azərbaycan qazının Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması planlaşdırılır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), Snam S.p.A. (20 faiz), Fluxys (19 faiz), Enagás (16 faiz) və Axpo (5 faiz)



# KONFRANSDA AZƏRBAYCAN VASİTƏSİLƏ DAŞIMALARIN ÜSTÜNLÜKLƏRİ QEYD EDİLİB

***Çikaqoda "İpək Yolu" konfransı keçirilib. Konfransın əsas mövzusu Avropanı Çinlə birləşdirən İpək Yolu üzərində yerləşən dövlətlərin investisiya, nəqliyyat, ticarət və tranzit potensialı ilə tanış etməkdən ibarət olub. Konfransda ABŞ-ın çoxsaylı ictimai, biznes və akademik nümayəndələri, habelə bir sıra digər dövlət təmsilçiləri də iştirak ediblər.***

Tədbirdə ölkəmizi təmsil edən ABŞ-dakı səfirliyimizin əməkdaşı Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi inkişaf siyasəti, nəqliyyat sektorunun inkişafı istiqamətində görülən işlər, İpək Yolu ilə daşımaların sürətləndirilməsi üçün aparılmış islahatlar, quru, dəmir, dəniz, hava yolları və əlaqədar infrastrukturun imkanlarının artırılması barədə tədbir iştirakçılarına geniş məlumat verib. Müzakirələrdə İpək Yolunun işə düşməsi üçün ölkəmizin praktiki töhfəsinin əhəmiyyəti vurğulanıb və Azərbaycan vasitəsilə daşımaların üstünlükləri qeyd edilib.

Tədbir Şimali İllinoys Universitetinin Biznes Kolleci və Çikaqo Kommersiya Birjasının sponsorluğu ilə Mərkəzi Asiya Məhsuldarlığın Araşdırılması Mərkəzi tərəfindən təşkil edilib. Həmçinin, konfransın həmsponsorları qismində "Silk Way", "Qlobal Biznes Məsləhəti" Jurnalı, Tianjin iqtisadi-texnoloji inkişaf Sahəsi, "Türk Hava Yolları" çıxış ediblər.

*Yusif Babanlı*

# ROBOT GƏMİ 2-3 AY ƏRZİNDƏ HEÇ BİR MÜDAXİLƏ OLMADAN SƏFƏR REALLAŞDIRA BİLƏR

***"Ulasimonline.com" saytı xəbər verir ki, sürücüsüz avtomobil, pilotsuz təyyarədən sonra 40 metr uzunluğunda olan yeni avtonom gəmi heç kəsin müdaxiləsi olmadan, hətta uzaqdan idarə edilmədən hərəkət etmək imkanına malikdir.***

Məlumata görə, yeni gəmi okeanda 2-3 ay ərzində heç bir müdaxilə olmadan səfər reallaşdıra bilər. Müdaxiləsiz hərəkət isə suda olan radarlar vasitəsilə təmin edilir. AIS adlanan gəmiyə aid proqram vasitəsilə "Sea Hunter" gəmilərlə toqquşma təhlükəsini aradan qaldırır.

Qeyd edək ki, "Sea Hunter" 2 il sınaqdan keçirildikdən sonra istifadə üçün ABŞ Dəniz Qüvvələrinə veriləcək.



# DƏNİZ QULDURLARI GİROV GÖTÜRDÜKLƏRİ TÜRKİYƏLİ DƏNİZÇİLƏRİ AZADLIĞA BURAXMIŞLAR

**"Anadolu" agentliyinin verdiyi xəbərə görə, dəniz quldurları Türkiyənin "M/T Puli" tankerinin altı heyət üzvünü azadlığa buraxmışlar.**

Gəminin sahibi – "Kaptanoğlu Dənizçilik" şirkətinin vəkili Fəhmi Ulgənər dənizçilərin azadlığa çıxması faktını təsdiqləmişdir. O əlavə etmişdir ki, tankerin heyət üzvləri tibbi müayinədən keçmişlər, onların səhhəti normaldır.

Dəniz quldurları Türkiyə gəmisini aprelin 11-də Nigeriyanın ərazi sularında dayandırmışdılar. Onlar heyət üzvlərinin bəzilərini, o cümlədən kapitanı özləri ilə götürüb sahilə çıxmışdılar. Göyərtədə qalmış dənizçilər tankeri yaxınlıqdakı limana aparmışdılar.

Qeyd edək ki, 2009-cu ildən bəri Türkiyə gəmiləri iki dəfə hücuma məruz qalmışdır. Dəniz quldurları tankerləri Ədən dənizində zəbt etmiş, bir müddət sonra isə buraxmışdılar.

*Tahir DADAŞOV*

# UCUZ TUTMAYIBDI XƏZƏR DƏ ONU

***Tanışlığımızın ilk dəqiqələrindən anladım ki, dənizə nə şöhrət, nə var-dövlət, nə də romantika üçün gəlib. Həyatının mənasını da dənizə, şərəfini uca tutduğu peşəsinə sədaqətdə, bir də halal çörəkdə görür. Bu gün əminliklə demək olar ki, Xəzər də ona borclu qalmayıb, sözünü daha çox işi ilə deyən bu fədakar, işgüzar dənizçini ucuz tutmayıb. Söhbət Dəniz Nəqliyyatı Donanması üzrə 2015-ci ilin "Ən yaxşı böyük mexaniki" Vaqif Ağababa oğlu Babayevdən gedir.***



İlk baxışdan da əsl dənizçiyə oxşayan Vaqif Babayev 1964-cü il noyabrın 11-də Xəzərin ləpədöyənində qərar tutan Neftçala rayonunda doğulub. Belə demək mümkünsə, beşiyini Kür yırğalayıb, laylasını Xəzər çalıb. Qədimkənd orta məktəbini yaxşı qiymətlərlə bitirəndə doğmalarının təkidi ilə Bakı Ali Hərbi Ümumqoşun Məktəbinə üz tutur. İmtahanları uğurla verir. Amma...

O günləri xatırlayan Vaqif müəllim dedi:

- Hərbi məktəbə qəbul olunandan sonra bir gün şəhəri gəzərkən diqqətimi yaraşıqlı dənizçi geyimində bir qrup gənc cəlb etdi. Yaxınlaşıb harda oxuduqlarını soruşdum. Bakı Dəniz Yolları Məktəbinin müdavimləri olduğunu dedilər. Doğmalarıma necə izah edəcəyim, hərəkətlərimə necə haqq qazandıracağım barədə düşünmədən Bakı Dəniz Yolları Məktəbinə gəldim. Ali hərbi məktəbə qəbul imtahanlarını uğurla verdiyim üçün məni BDYM-ya imtahansız, müsahibə əsasında qəbul etdilər.

**- Bu qərarınıza səbəb nə idi?**

- Bəlkə xəyalımda tez-tez dənizlərdə səfərlərə çıxdığıma görə hərbçi olmaqdan imtina etdim?! Bəlkə də ona görə ki, yaxınlaşıb harda oxuduqlarını soruşduğum gələcəyin dənizçiləri mənə çox xoşbəxt göründülər.

Vaqif Babayev 1985-ci ildə Bakı Dəniz Yolları Məktəbinin gəmi mexaniki fakültəsini fərqlənmə diplomu ilə bitirir. Təhsilini artırmaq arzusu ilə 1985-1989-cu illərdə Odessa Ali Dəniz Mühəndisləri Məktəbində gəmi güc qurğularının istismarı mühəndisi ixtisasına yiyələnir.

Dənizçi kimi əmək salnaməsinə ilk sətirlər 1989-cu ildə "Teymur Əhmədov" teploxodunda yazılır. Göyərtəsinə dördüncü mexanik kimi qədəm qoyduğu bu gəmidə diribaşlığı, işgüzarlığı gözdən yayınmır. Böyük mexanik Raqif Məmmədov hələ o vaxt haqqında deyirdi ki, "bu cavan əsl dənizçi olacaq". 1991-1995-ci illərdə "Bakı" ,"Nigar Rəfibəyli" gəmilərində üçüncü mexanik, 1996-cı ildən "Araz", "Şamxor" gəmilərində ikinci mexanik üzür. 2000-ci ildən "Qəhrəman Əsədov" tankerində böyük mexanik kimi səfərlərə çıxır. Sonrakı illərdə "Mahmud Rəhimov", "Gəncə" gəmilərinin maşın komandasına başçılıq edib. 2010-cu ildən "Dədə Qorqud" tankerinin böyük mexanikidir.

Gəmi keçən ilin martında "Zığ" Gəmi Təmiri Zavodunda dok təmirindən çıxıb. Maşın komandasının üzvləri Vaqif Babayevin rəhbərliyi ilə güc qurğularına, mexanizmlərə savadlı texniki xidmət göstərməklə, gəmini daim istismara hazır vəziyyətdə saxlamağa çalışırlar. Alaca- Səngəçal, Kiyanlı-Səngəçal xətlərində xam neft daşıyan tankerin uğurlu səfərlərində maşın komandası üzvlərinin zəhmət payı çoxdur. Böyük mexanikin tabirincə desək, ikinci mexanik Rəşad Musayev, üçüncü mexanik Rəsul Nərimanov, elektrik mexaniki Məhərrəm Kərimli, motorçu-elektrik Çingiz Məmmədov istənilən heyətin üzünü ağarda bilən dənizçilərdəndir.

Vaqif müəllimin xarakterik keyfiyyətlərdən biri də gəmidə olarkən heç vaxt arxayınlaşmamasıdır. Hər şey qaydasında olanda belə, gündə neçə dəfə maşın şöbəsinə düşür, mexanizmlərin səsini diqqətlə dinləyir, tabeliyindəkilərə tövsiyələrini verir.

İnsanın dünyaya gəlişi özündən asılı olmasa da, həyat tərzi, necə yaşaması özündən asılıdır. Nədən ötrü yaşadığını dərk etmədən isə həyatını nizamlamaq çətindir. Dəniz üçün doğulduğunu da Vaqif müəllim çox erkən dərk edib. Sevgiyə bax ki, sahildə düşəndən cəmi bir neçə saat sonra qoynunda ona bir an dinclik verməyən dəniz üçün, yuxusunu əlindən alan səfərlər üçün darıxır.

Çətin və şərəfli peşəsinin sınağından həmişə üzüağ çıxdığı, əksər dəniz və okeanlarda iz qoyduğu, kollektivdə xətir-hörmət yiyəsi olduğu üçün özünü xoşbəxt saya bilər. Xoşbəxtdir həm də ona görə ki, fədakarlığı gözdən yayınmayıb, əməyi layiqincə qiymətləndirilib. "Ən yaxşı böyük mexanik" adına layiq görüldüyünə sevinən isə yəqin təkcə özü deyil. Onu yaxından tanıyanların, işgüzarlığına bələd olanların hamısı "halal haqqıdır" deyirlər.

Həyatda nail olduğu çox şeyə görə 8 övlad tərbiyə edən, özlərinin həyat tərzləri ilə balalarına insanlıq dərsi keçən valideynlərinə borclu olduğunu unutmur. Haqq dünyalarına qovuşan atası Ağababa kişi dəmiryolçu, anası Səkinə xanım evdar qadın olub. Başqa sözlə, halal çörəyin öpülüb göz üstə qoyulduğu bir ailədə boya-başa çatıb. Evin sonbeşiyi olsa da, uşaqlıqdan zəhmətə alışdırılıb.

Özü də xoşbəxt atadır. Ömür-gün yoldaşı Mənzər xanımla iki övlad tərbiyə edib. Oğlu Səbuhi Azərbaycan Dövlət İqtisad Universitetində iqtisadi kibernetika üzrə bakalavr təhsili aldıqdan sonra Dövlət İdarəçilik Akademiyasına daxil olub. Hazırda Milli Orduda xidmət edir. Qızı Səbinə Azərbaycan Dillər Universitetinin tələbəsidir.

Vaqif Babayevlə istənilən mövzuda söhbət etmək mümkündür. Dünyagörüşü kifayət qədər genişdir. Buna görə yəqin ilk növbədə sevib-seçdiyi peşəsinə borcludur. Əbəs yerə deməyiblər ki, çox gəzən çox bilər. Bir vaxtlar üzdüyü gəmilər dünyanın 54 ölkəsinin limanlarında lövbər salıb. Üstəlik mütaliəni də çox sevir.

İç dünyasına bələd olmaq üçün böyük mexanikə ünvanladığım bütün suallarıma da səmimi cavab aldım:

**- Vaqif müəllim, həyatda əlinizdən tutan çox olub?**

- Sizə qəribə gələ bilər. Amma, işdə daha çox mütaliə köməyimə çatıb. Oxumaqdan, öyrənməkdən heç vaxt doymamışam.

**- Dənizin sizdən aldıqları çox olub, yoxsa sizə verdiyi?- deyə soruşdum.**

- Bəlkə də aldıqları çox olub. Amma hər halda heç kəsin vermədiklərini verib. Yaxşını pisdən ayırmağı öyrədib, dünyagörüşümü, dözümümü formalaşdırıb.

**- Bağışlamağı bacarırsınızmı?**

- Düzü, əvvəllər çətin idi. Görünür, yaş öz sözünü deyir. İndi bacarıram və çalışıram ki, bağışlayım.

***İnsanlarda düzlüyə, səmimiyyətə çox böyük dəyər verən Vaqif Babayev ağlı söz kəsəndən öz taleyini həyat fəlsəfəsinə uyğun özü yazır. Əllərinin qabarına, alnının tərinə güvənə-güvənə. Hələ ki, nə yazıbsa, müəllif kimi ona ancaq başucalığı gətirib.***

*Rasif TAHİROV*

# 12 SUBMARİNA TİKƏCƏK



***Avstraliya üçün yeni sualtı donanmanın inşası ilə bağlı tenderi udan Fransa şirkəti bu ölkə üçün 12 submarina tikəcək. Bu barədə aprelin 26-da Avstraliyanın Baş naziri Malkolm Ternbull məlumat verib.***

Baş nazir deyib: "Bütün təklifləri diqqətlə nəzərdən keçirdikdən sonra biz birmənalı şəkildə qərara gəldik ki, Fransanın DSNC korporasiyasının təklif etdiyi variant bizim milli təhlükəsizliklə bağlı maraqlarımıza daha çox cavab verir".

Tenderə Fransa ilə yanaşı, Almaniya və Yaponiya şirkətləri də onlara məxsus qeyri-atom sualtı qayıqlarının modellərini təqdim ediblər. Yeni sualtı qayıqların inşası üçün 40 milyard dollar vəsait ayrılacaq. Bu, Avstraliya tarixində ən böyük müdafiə sifarişidir. Tikinti işləri əsasən Avstraliyanın Adelaida şəhərinin tərsanələrində aparılacaq ki, bu da əlavə minlərlə yeni iş yerlərinin açılması deməkdir.

Yeni sualtı qayıqlar üçün əsas tələblərdən biri onların sututumunun 4 min tondan yuxarı olması idi. DCNS şirkətinin təklifi 4 min 700 ton sututumlu malik "Barracuda" sinfindən olan sualtı qayıq üzərində qurulmuşdu. Lakin həmin qayıqlar atom enerjisi ilə çalışır və mühəndislər bu modelin konstruksiyasını dəyişərək onu yeni qeyri-atom submarinasına çevirməlidirlər.

*Vüqar Ağayev*

# METANOLLA İŞLƏYƏN İLK GƏMİ

***"Stena Line" əsas yanacaq kimi ekoloji cəhətdən təmiz metanoldan istifadə edən dünyanın ilk gəmi şirkətidir. Şirkətin "Stena Germanica" adlı metanolla işləyən ilk gəmisi Kiel-Höteborq marşrutu üzrə hərəkət edir.***




Şirkət metanolun imkanlarına böyük maraq göstərir və onu gələcəyin ən səmərəli yanacağı adlandırır.

Metanol kükürd və zərrəciklərin tullantılarını 99 faizə qədər azaltmaqla, bioloji cəhətdən parçalana bilən, ekoloji təmiz və sərfəli yanacaqdır. Gəmiqayırma zavodunda "Stena Germanica"nın yanacaq sistemi, mühərrikləri "Stena Line" və "Vartsila" şirkətləri arasında olan əməkdaşlığa uyğun tənzimlənib.

"Stena Germanica" gəmisinin yığılması işləri Polşa, Qdansk, Remontova gəmiqayırma zavodlarında aparılıb. Avropa İttifaqının təşəbbüsü ilə həyata keçirilən layihə ümumilikdə 22 milyon avroya başa gəlib. Gəminin yığılmasında innovativ texnologiyalardan istifadə edilib.

# ÜZƏN NÜVƏ STANSİYASI İNŞA ETMƏYİ PLANLAŞDIRIR



***"Global Times" qəzeti xəbər verir ki, çinli mütəxəssislər üzən nüvə stansiyasının Cənubi Çin dənizində süni adaların inşası işlərində məhsuldarlığı əhəmiyyətli dərəcədə artıracağına inanır. Dənizdə hərəkət edə bilən və sabit enerjini təmin edəcək üzən nüvə stansiyasının platformasının inşası üçün işlər görülür.***

Çinin Gəmi İnşası Sənayesi şirkətinin (CSIC) direktoru Liu Cınguo üzən nüvə stansiyasının üstünlüklərinin olduqca çox olduğunu və bu stansiyaların dənizdə qazma platformalarında da istifadə edilə biləcəyini deyib.

Çinin ilk üzən nüvə stansiyasının platformasının 2019-cu ildə suya endirilməsi nəzərdə tutulur.

*Nihad BUDAQOV*

# "Ermənilərin hiyləgərliyi olduqca murdar, riyakarlıqları olduqca dözülməzdir, əclaflıqları isə təəssüf doğurur"

## GÖRKƏMLİ ADAMLAR ERMƏNİLƏR HAQQINDA

**K.MARKS:** "Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur".

**F.ENGELS:** "Korinfdə və hətta Hindistan məbədlərində qulluq edən ilk rəqqasə və fahişələr erməni kənizləri olmuşlar".

**Böyük TEYMURLƏNG deyirdi:** "Tarix mənə 2 şeyi bağışlamayacaq: 1) Erməniləri bir etnos kimi məhv etmək istəsəm də, ancaq etmədiyimə görə; 2) Doğrudur, ermənilərin arasında da ola bilsin ki, yaxşıları var. Lakin bütövlükdə erməni xalqı alçaq və rəzil xalqdır. Heç vaxt fikrini üzə deməz, gizli saxlayar. Buna görə də adama mədəni təsir bağışlayar. Lakin imkan düşən kimi qanını tökər".

**Roma tarixçisi KORNELİY TASİT:** "Bu xalq tutduğu mövqeyə və qəlbindəki qəzəbə görə əsrlər boyu etibarsız xalq olub".

**Alman alimi ALFRED KÖRTE – "Anadolu eskizləri" kitabından:** "Bu əyalətlərdə xalqın əsas hissəsi ilə təmasda olan hər bir şəxs, demək olar ki, türkləri sevir və hörmət edir, yunanları aşağı səviyyəyə qoyur, ermənilərə isə nifrət edir. Bu yerdə bir məsəl özünü doğruldur: bir yunan iki yəhudini aldadar, bir erməni isə iki yunanı. Əgər mən türklə iş görürəmsə, onunla yazılı müqaviləyə ehtiyac yoxdur, türkün bir sözü yetər. Yunanla yazılı müqavilə bağlayıramsa, onunla belə işbirliyi vacib və əhəmiyyətlidir. Erməni ilə yazılı heç bir iş görmək olmaz, çünki onların yalan və intriqalarının öhdəsindən hətta yazılı sənəd də gələ bilməz!"

**Görkəmli fransız yazıçısı ALEKSANDR DÜMA:** "Ermənilər həmişə erməni dinindən fərqli dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə onlar öz fikirlərini, hisslərini və məramlarını gizlədən vücudlara, habelə dələduzlara və fırıldaqçılara çevrilmişlər".

**Fransız səyyah qraf DE-ŞOLYE:** "Mən onlarla heç vaxt dil tapa bilmədim. Onların hiyləgərliyi olduqca murdar, riyakarlıqları olduqca dözülməz, əclaflıqları isə təəssüf doğurur".

**İngilis səyyahı VİLSON:** "Ermənilər acgöz və tamahkardırlar. Onlar istənilən bir cəfəngiyatı böyütmək üzrə abırsız dərəcədə mahirdirlər və intriqaları sevirlər".

**Şərqşünas alim, mənşəcə İsveçrə yəhudisi ADAM METS xəlifət dövrünün tarix və mədəniyyətini araşdıraraq yazırdı:** "Ermənilər ağ adamlardan olan qulların ən pisləridir. Onların hamısının ayaqları əyri, danışdıqları dil isə çox kobuddur. Utanmaq nədi bilməyən ermənilər əsasən oğurluqda məşhurdurlar. Erməni qulu bircə saat işsiz qoysan, daxili aləmi onu pis əməllərə sürükləyər. Dəyənək altına salınanda qorxusundan yaxşı işləyir, işi zəiflikdən yox, tənbəllikdən görmək istəmir, tənbəllikdən zövq alır. Belə olan halda onu ağacla kötəkləmək lazımdır".

**Eçmiədzin sinodunun prokuroru A.FRENKELİN 1907-ci ildə müqəddəs sinoda təqdim etdiyi arayışdan:** "Erməni xalqının tarixi taleyi bu xalqın tamamilə müstəqil dövlət yarada bilməməsini təkzibolunmaz dəqiqliklə sübut edir"."… erməni xalqı ali sivilizasiyanı dərk etmək iqtidarında olmadığını sübut etdi, çünki bir neçə minilliklər ərzində dünya tarixinə onların elm və mədəniyyət xadimindən 1 nəfərin belə adı yazılmayıb". "Hərislik, intriqalar, satqınlıq, andı pozma, yaltaqlıq bu qəbilənin əsas milli xüsusiyyətlərindəndir, bu vətəndaşın – ermənininin qürurla adını çəkə biləcəyi vətəni yoxdur, yalnız 1300 il qul kimi yaşaması və hamı tərəfindən parazit kimi lənətlənməsi haqda acı etirafı var". "Ermənilər özləri haqda hələ qədimdən pis fikirlər yaradıblar. Bu da yəqin ki, əsassız deyil. Elə olmasaydı, dünyanın bir çox xalqları, o cümlədən ayrı-ayrı zamanlarda eyni fikirdə olmazdılar. Məhz ermənilər hər cür bəhanə ilə hay-küy qoparmaq qabiliyyətinə malikdirlər. Onları heç kəs öz evinə buraxmır, çünki oğrudurlar. Onlar nəinki özləri çığırırlar, həm də özləri kimi axmaq və satqınları da buna məcbur edirlər".

**Gürcü yazıçısı və təfəkkürü İ.ÇAVÇAVADZE:** "Ermənilər gürcülərə mənsub məbəd və monastırlardan gürcüləri qovur və onları məhv edir, daşlarda gürcü yazılarını silirlər, qədim tikililərdən daşları çıxarıb, gürcü yazılarını erməni yazıları ilə əvəz edirlər".

**Gürcü yazıçısı SERQİ SACAYA:** "Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır".

**Amerika tarixçiləri CASTİN VƏ KEROLİN MAKKARTNİLƏR:** "Ermənistanın müasir ərazisi ermənilərə deyil, azərbaycanlılara mənsubdur. Məhz buna görə Ermənistan ərazisində coğrafi adların böyük hissəsi azərbaycanlılara aiddir".

## ERMƏNİLƏR ÖZLƏRİ HAQQINDA

**Erməni tarixinin atası sayılan MOVSES XORENASİ hələ 5-ci əsrdə öz qəbilədaşları haqqında deyirdi:** "Mən xalqımızın daşürəkliliyini və yekəxanalığını göstərmək istəyirəm. Ermənilər həqiqəti inkar etməyi xoşlayırlar. Onlar böyük-böyük danışmağı sevən, ikiüzlü millətdir".

**PETRONİY QAY AMATUNİ – erməni sovet yazıçısı:** "Ermənilər də insandırlar. Amma evdə dördayaqlı gəzirlər".

**KEROP PATKANOV, erməni şərqşünas alimi, erməni tarixi mənbələri üzrə mütəxəssis:** "Ermənistan bəşəriyyət tarixində dövlət olaraq heç bir əhəmiyyətli rola malik olmayıb. Onun adı ermənilər tərəfindən yayılan coğrafi termin olub. Bura güclü dövlətləri olan assuriyalılarla, midiyalılarla, iranlılarla, yunanlarla, monqollarla, ruslarla mübahisələrin həlli məkanı olub".

"Türkmənçay" müqaviləsi imzalanandan sonra (10 fevral 1828-ci il) Paskeviçin rəhbərliyi ilə Azərbaycana İrandan 40 min, Türkiyədən 90 min erməni köçürüldü. Birlikdə götürüldükdə 1828-1896-cı illərdə İrəvandan və Türkiyədən köçürülənlərin sayı 2 milyon 200 mindən artıq olmuşdu. Onlardan 985 min 460 nəfəri Azərbaycanın qərb torpaqlarında, qalan hissəsi isə Qarabağ və Yelizavetpol (Gəncə) quberniyasında yerləşdirilmişdi. Ermənilər bu yerlərdə məskunlaşandan sonra azərbaycanlıları sıxışdırmağa başlamış, onların qarətçilik əməlləri adi hal almışdı".

**Professor LEO (erməni tarixinə dair bir neçə böyük əsərin müəllifi, erməni kilsəsinin və erməni milyonçularının pulu ilə əmələ gələn mifik erməni tarixinin yaradıcılarından biri) məcbur olub etiraf edir:** "Erməni aşıq yaradıcılığının yalnız kiçik, əhəmiyyətsiz bir hissəsi bizim ədəbiyyata aiddir. Onun böyük hissəsi (dastanlar, qəhrəmanlıq nəğmələri) türk dilindədir. Nağıllarda və nəğmələrdə əks olunan həyatı ifadə etmək üçün türk dili daha əlverişli, obrazlı və zəngindir".

**Erməni tarixçisi QEVORQ ASLANIN 1914-cü ildə "Ermənistan və ermənilər" kitabından:** "Ermənilərin dövlətçiliyi olmamışdır. Ona görə də onlarda vətən hissi yoxdur. Erməni vətənpərvərliyi yalnız yaşayış yeri ilə əlaqələndirilir. Bir dövlət kimi heç bir zaman mövcud olmamış xəyali "böyük Ermənistan" yaratmaq ideyası dünyanın bütün haylarını birləşdirmək yolunda ümummilli konsepsiyadır".

**R.AÇARYAN – erməni jurnalisti:** "Erməni dilində 4200 türk sözü var".

**Erməni yazıçısı X.ABOVYAN:** "Erməni dilinin yarısı türk, yarısı da fars sözləridir".

**YEQİŞE ÇARENS – erməni şairi:** "Bizdə riyakarlıq hələ ana bətnindən əmələ gəlir".

## RUSLAR ERMƏNİLƏR HAQQINDA

**Rus şairi A.S.PUŞKİN:** "Sən qulsan, sən qorxaqsan, sən ermənisən".

**Ərzurum artilleriyasının komandanı və 2-ci Ərzurum qala artilleriya alayının komandiri, podpolkovnik TVERDOXLEBOVUN xatirələrindən:** "Biz, Ərzurumda müsəlman əhali ilə, demək olar ki, iki il yaşamış və onlara yaxşı bələd olmuş rus zabitləri, üsyanın olmasına inanmırdıq və erməni qorxaqlığını açıq şəkildə lağa qoyurduq". "Ermənilər, bu qaniçən və azadlıq uğrunda qorxaq mübarizlər, bizim arxamızdan türklərin aciz qoca, qadın və uşaqlarını doğrayaraq incitməyə başlayırlar". "Mənfur ermənilər döyüş meydanındakı əsl əsgərlərdən qorxaqcasına qaçırlar, əsasən qocaların, qadınların, uşaqların və əliyalın insanların üstünə kütləvi hücumlarda mərd və cəsurdurlar".

**A.QRİBOYEDOV, rus diplomatı, Rusiya imperatoruna göndərdiyi məktubdan:** "Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında məskunlaşmasına icazə verməyin. Onlar elə bir qəbilədəndirlər ki, bir neçə onilliklər yaşayandan sonra bütün dünyaya çığıracaqlar ki, bu torpaqlar bizim ata və babalarındır".

**A.QRİBOYEDOV 1819-cu ildə Mazareviçə raportunda yazırdı:** "Bu ermənilər nə murdar adamlardır. Onlardan heç biri məni tanımaq istəmir. Ancaq həmişə qulağıma pıçıldayaraq deyirlər ki, ruslar onların havadarlarıdır. Sözdə belə deyir, ancaq əslində erməniləri təpik altına salmağa hazır olan farslara satılırlar".

**Rus tarixçisi N.ŞAVROV:** "Ermənilər yalançı şahidlərdən geniş istifadə edərək, torpaqsız gəlmələr kimi, böyük həcmdə dövlət torpaqları ələ keçirdilər".

**Rus diplomatı, general MAYEVSKİ - "Ermənilərin törətdiyi kütləvi qətllər" kitabından:** "Görəsən kimsə ermənilərin xalq qəhrəmanlığı haqqında eşidibmi? Onların azadlıq uğrunda döyüşçülərinin adları harada həkk olunub? Heç yerdə! Ona görə ki, ermənilərin "qəhrəmanları" öz xalqının xilaskarından daha çox onun cəlladı olublar". "Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Qarabağ Azərbaycanın tarixi əyalətlərindən biridir. Bu region Azərbaycanın mühüm siyasi, dini, mədəni mərkəzidir. Bədnam Qarabağ problemi ermənilərin tarixi saxtalaşdırma ideyasının "məhsuludur".

**Rus tədqiqatçısı V.Veliçko:** "Ermənilər yerli əhalinin qanını içirlər. Bundan razı qalmayaraq gələcəkdə onları öz yerlərindən qovub torpaqlarına sahib olmaq məqsədilə yerli müsəlman əhalini hörmətdən salmaq siyasəti həyata keçirirlər". "Erməni qadınları digər xalqlarla zorla, məcburən də olsa, əlaqədə olmuşlar. Şərəf və ləyaqətlərini itirmiş erməni qadınları ilə münasibətdə olan İran əsgərləri, türklər, gürcülər və dağlılar görünür onlardan heç bir ədəb-ərkan gözləməmişlər. Bu səbəbdən də ermənilərin damarlarından hər cür qan axır". "Biz hələ "böyük Ermənistan" adlı dərdli ölkə haqqında yazılan, qonşu ölkələri də bundan agah etmək missiyasını öz üzərinə götürən erməni dərsliklərini demirik. Kilsə məktəblərində hətta "böyük Ermənistanın" xəritələri verilir, paytaxtı Tiflis şəhəri göstərilir və onun sərhədləri Voronejədək uzanıb gedir".

**ANNİNSKİ – tarixçi:** "Qədim ermənilərin keçmiş siyasi qüdrətinin və mədəniyyətinin əhəmiyyətini sübuta yetirən heç bir sənədin qorunub-saxlanmaması göstərir ki, onların heç nəyi olmamışdır. Bu onu göstərir ki, qədim ermənilər azsaylı vəhşi qəbilə üzvləri olmuşlar. Ermənilərin bədii yaradıcılığının son dərəcə miskinliyi də bununla əlaqədardır. Onların elmliliyi barədə danışmağına da dəyməz. Ermənilər mövcudluqlarının bütün dövrü ərzində heç bir orijinal şey meydana çıxara bilməmişlər".

**V.YELİXOVSKAYA – tədqiqatçı:** "Dünyaya səpələnmiş ermənilər birgə yaşadıqları xalqların adətlərini, ənənələrini, geyimlərini tez mənimsəyirlər. Buna görə də Türkiyədə ermənini türkdən, İranda isə farsdan seçmək olmur".

*Məlumatı müxtəlif mənbələrdən topladı və tərcümə etdi:*
***Fuad MƏHƏRRƏMOV,***
***hüquq üzrə fəlsəfə doktoru***

# OKEANLARIN AÇILMAMIŞ 10 SİRRİ

***Dünya okeanı da kosmos qədər sirli və bir çox halda tədqiq olunmamış qalır. Byaki.net saytı okeanın indiyədək açılmamış 10 sirrini təqdim edir.***









**İblis dənizi**

Sakit okeanda Miyak adası yaxınlığında yerləşən bu məkrli sahədə Yaponiyanın hərbi gəmilərində 700-ə yaxın insan itkin düşüb. Onların yoxa çıxmasının səbəbi indiyə qədər də sirr olaraq qalır.

**Yaponiya Atlantidası**

1986-cı ildə dalğıclar dənizin dibində sonradan Yonaquni abidəsi adlanan və aralarında piramidaların da olduğu tikililər seriyası tapıblar. Yaponiyanın cənubunda yerləşən Yonaquni adası yaxınlığında 5 məbəd, saray və stadionun xarabalığı aşkar edilib. Onların yox olmuş sivilizasiyaya aid olduğu güman edilsə də, obyekt özündə hələ də çoxsaylı sirləri gizlədir.

**Ruhların gəmisi**

1872-ci il dekabrın 4-də kapitan Morehaus dənizdə özbaşına üzən "Mari Selesta" adlı yelkənli ticarət gəmisi aşkarlayır. Gəmi saxlanılır və onun göyərtəsində heç kimin olmadığı üzə çıxır. Bu müəmmalı hadisənin səbəbi indiyə qədər də bəlli olmayıb.

**Bermud üçbucağı**

Atlantik Okeanının ən böyük sirlərindən biri – Bermud üçbucağı sahəsidir. 1918-ci ildə burada ABŞ-ın "Siklon" hərbi gəmisi yoxa çıxıb. 1945-ci ildə 5 gəmi onların axtarışına gələn təyyarələrlə birgə elə həmin yerdə itib. Bundan başqa, Bermud üçbucağı bir çox gəminin də yoxa çıxmasına səbəb olub.

**Baltik anomaliyası**

Baltik dənizinin dibində naməlum mənşəli cihaz var. Onun yanından keçən bütün gəmilər elektromaqnit dalğaların təsirinə məruz qalır. Qəbuledicilər cihazdan sirli radio-siqnallar alır. Lakin onun mənşəyi barədə hələlik elmə heç bir şey məlum deyil.

**Süd dənizi**

Biolüminessent bakteriyalar gecənin yarısı dənizin müəyyən yerlərində əsrarəngiz işıq effekti əmələ gətirir. Bu sirli süd rəngi bir sıra məşhur dəniz əfsanələrinin yaranmasına səbəb olub. Lakin alimlər hələ də işığın mənbəyi barədə yekdil rəyə gələ bilməyiblər.

**Nəhəng kalmar**

2012-ci ilin iyul ayında 1000 kiloqram ağırlığında və 13 metr uzunluğunda kalmar aşkarlanıb. O, kiçik qayığı dartaraq suyun dibinə apara bilərdi. Okeanın dərinliklərində belə nəhənglərin olması əvvəllər də təsdiqlənmişdi.

**Dənizdə itən təyyarələr**

1937-ci ildə Emiliya Erhart və onun ikinci pilotu Fred Nunen Haulend adası rayonunda Sakit okeanın üzərindən uçarkən yoxa çıxıb. Hadisədən on illər sonra, 2014-cü il martın 8-də Malayziya aviakompaniyasına aid MH370 təyyarəsi də izsiz-soraqsız qeyb olub.

**Yoxa çıxan sualtı qayıqlar**

1968-ci il sualtı qayıqlar üçün uğursuz il olub. Fransa, ABŞ, İsrail və SSRİ həmin il yoxa çıxma yeri və səbəbi bəlli olmadan sualtı qayıqlarını itiriblər.

**Naməlum nəhəng yırtıcı**

Dörd metr uzunluğa malik ağ köpəkbalığı naməlum nəhəng canlıya yem olub. Bu barədə məlumatları tədqiq edən alimlər onun elmə məlum olan dəniz heyvanlarından xeyli böyük yırtıcı tərəfindən yeyildiyi qənaətinə gəliblər.









## ARKTİKADAKI BUZ ÖRTÜYÜNÜN SAHƏSİ REKORD MİQYASDA AZALIB

***Arktikadakı buz örtüyünün sahəsi bu qış rekord miqyasda azalıb. Yer kürəsinin qar və buz örtüyünün tədqiqi üzrə Milli Mərkəzi təmsil edən amerikalı alimlər bu nəticəyə gəliblər.***

TASS informasiya agentliyi xəbər verir ki, martın 24-də Arktikadakı buz örtüyünün sahəsi 14,52 milyon kvadratkilometr olub. Artıq iki ildir bu xoşagəlməz nəticə qeydə alınıb. 2015-ci il fevralın 25-nə olan vəziyyətə görə, bu göstərici 14,54 milyon kvadratkilometr olub. Ümumən 1981-2010-cu illər dövründə Arktikadakı buz örtüyünün sahəsi 15,64 milyon kvadrat kilometr təşkil edib.

Amerikalı ekspertlər bildiriblər ki, bu qış buzlaqların sahəsi Arktikanın bütün rayonlarında orta göstəricidən də az olub. Yalnız Labrador və Baffin dənizləri, habelə Hudzon boğazı istisna təşkil edib. Alimlər qeyd ediblər ki, Barents dənizində buz örtüyü xüsusilə azalıb.

Şimal Buzlu okean üzərində havanın temperaturu dekabr, yanvar və fevral aylarında orta göstəricidən 2-6 dərəcə yüksək olub.

Yer kürəsinin qar və buz örtüyünün tədqiqi üzrə Milli Mərkəzinin rəhbərlərindən biri olan Ted Skembos bildirib ki, onlar Amerika peyklərindən ötürülən informasiyaya istinad edirlər. Bu tədqiqatlar 1978-ci ildən aparılır. T.Skembos qeyd edib ki, hazırda Arktika böhran dövrü yaşayır. Baş verən proseslər bütün Şimal yarımkürəsində havanın temperaturuna təsir göstərir.

## BİLETLƏRİ HƏMÇİNİN ONLİNE ƏLDƏ EDƏ BİLƏRSİNİZ

***Mayın 5-dən 21-dək Bakıda keçiriləcək UEFA U-17 Avropa çempionatı Azərbaycan 2016-nın oyunlarına bilet satışı davam edir.***



Biletləri aşağıda göstərilmiş satış məntəqələrində əldə etmək mümkündür:

28 MALL Ticarət Mərkəzi, Park Bulvar Alış-Veriş Mərkəzi, 8-ci KM stadionunun kassası, Bakcell Müştəri xidməti (Ü. Hacıbəyli, 48 ünvanında), Baki Olimpiya Stadionunun kassası, "Qarabağ" stadionunun kassası, Gənclik MALL Alış-Veriş Mərkəzi

Biletləri həmçinin online əldə edə bilərsiniz : http://tickets.affa.az

Biletlər 3 kateqoriya üzrə satılır: Kateqoriya 1 – 2 AZN, kateqoriya 2 – 1 AZN, VİP – 10 AZN.

## ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Maliyyə və uçot departamentinin rəisi Fəxrəddin Həsənova, anası

**HAVAXANIM BƏYİŞ qızı HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Mərkəzi Dənizçilər Xəstəxanasının baş həkimi Gerasim Rüstəmova, qardaşı

**ASİM RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xəzər Dəniz Neft Donanmasının kollektivi"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Maliyyə və uçot departamentinin rəisi Fəxrəddin Həsənova, anası

**HAVAXANIM HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dəniz Nəqliyyatı Donanmasının kollektivi"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Maliyyə və uçot departamentinin rəisi Fəxrəddin Həsənova, anası

**HAVAXANIM HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Maliyyə və uçot departamentinin kollektivi departamentin rəisi Fəxrəddin Həsənova, anası

**HAVAXANIM HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mərkəzi Dənizçilər Xəstəxanasının kollektivi baş həkim Gerasim Rüstəmova, qardaşı

**ASİM RÜSTƏMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1194